UOT – 07.00.02

# AZƏRBAYCAN RESPUBLİKASININ CƏNUB-ŞƏRQ BÖLGƏSİNDƏ TAPILMIŞ "GÜMÜŞ BÖHRANI" DÖVRÜNƏ AİD SİKKƏLƏR

**M.V.CƏFƏROV**
***Lənkəran Dövlət Universiteti***
***Mayis1968@mail.ru***

*Azərbaycan Respublikasının cənub-şərq bölgəsində tapılmış və tədqiqata cəlb olunmuş Şəmsəddin Eldəgəzin və Məhəmməd Cahan Pəhləvanın adından zərb edilən dəfinədəki sikkələr Azərbaycanın Atabəylər dövlətinə aid edilir.*

*Tapıntının tərkibindən göründüyü kimi onlardan 37-si "düzgün", 13-ü isə "düzgün olmayan" formalı sikkələrə aid edilir. Atabəylər dövlətinin sikkələri qeyd olunan dövrdə, Avropa ilə Asiya arasındakı qarşıqlı əlaqələrdə böyük rol oynayan «İpək yolu»nun şaxələrindən birininin üzərində tapılmışdır.*

**Açar sözlər:** Səlcuqilər, Atabəylər, məlik, dəfinə, sikkə, dinar, dirhəm, gümüş

X əsrin ikinci yarısından başlayaraq Yaxın və Orta Şərq intibahının ən bariz iqtisadi fenomeni-pul təsərrüfatında mübahisəli məsələlərdən biri olan mühüm iqtisadi hadisə «gümüş böhranı» başlayır. Bu maraqlı, olduqca çətin problemə məşhur, şərqşünas X.D.Frenin [16], A.K.Markovun [7], E.A.Paxomovun [10], Z.M.Bünyadovun [1], Ə.M.Rəcəblinin [12], E.A.Davidoviçin [5], B.A.Litvinskinin [6], M.Seyfəddinin [13] əsərlərdə müxtəlif izahlar və şərhlər verilmişdir.

Azərbaycan numizmatikasının əsasını qoyan görkəmli alim Y.A.Paxomov gümüş böhranının əsas səbəbini şimalla cənub arasında ticarət balansının cənubluların ziyanına pozulmasında, çoxlu miqdarda gümüş sikkələrinin ixracı ilə əlaqələndirmiş və xilafətin tənəzzülü nəticəsində Şərqdə feodal dövlətlərinin meydana gəlməsini, feodal ara müharibələrinin karvan ticarətini zəiflətməsini, Xəzər xaqanlığının dağılmasını gümüş böhranına əsas səbəb kimi göstərmişdir [10, 83].

M.A.Seyfəddini Yaxın Şərqdə gümüş böhranını təhlil edərkən, XI-XII əsrlərdə sənətkarlığın və əmtəə istehsalının artması nəticəsində şəhərlərin sürətlə inkişafını, dağ-mədən işində Yerin təkindən gümüşün çıxarılma texnikasının zəifləməsini, 975-ci ildən gümüş mədənlərinin Samanilər dövlətinin təsir dairəsindən kənarda qalmasını, Xəzər xaqanlığının dağılmasını verməklə E.A.Davidoviçin [5, 92], B.A.Litvinskinin mülahizələrini təkrarlamış [13, 92-

117; 6, 62], şimal-cənub ticarət əlaqələrinin zəifləməsini [13, 57], ticarətdə və pul dövriyyəsində qızılın aktivliyini [13, 47] gümüş istehsalının tənəzzülünə səbəb kimi göstərmişdir. Ə.M.Rəcəbli gümüş böhranının səbəbini ilk dəfə daha dəqiq qiymətləndirərək, "Gümüş dirhəmlərin emitetin sərhədlərindən kənara Şimali və Şərqi Avropaya intensiv daşınaraq ehtiyatlarının azalmasında" və "bu prosesin əksinə olaraq, əmtəə istehsalı, ticarətin genişlənməsi, şəhərlərin inkişafı ilə əlaqədar əmtəə-pul münasibətlərinin sürətlənməsi nəticəsində daxili bazarda dövriyyə vasitələrinə artan ehtiyacdan çoxlu pul kütləsinin cəlb olunmasında" görmüşdür [12, 43].

Beləliklə, Yaxın və Orta Şərq ölkələrində, həmçinin Azərbaycanda gümüş böhranı iqtisadi yüksəlişin göstəricisi hesab edilməlidir. Bəhs olunan dövrdə yuxarıda qeyd olunduğu kimi, gümüş yataqlarında filizin tükənməsindən danışmaq qəbuledilməzdir. Burada şəhərlərin iqtisadi inkişafı, Avropa ölkələri ilə ticarət əlaqələrinin güclənməsinə, Şərq intibahına səbəb olmuşdur. Klassik gümüş dirhəmlər uzaq ölkələrə əmtəə kimi satıldığına baxmayaraq, Şərq ölkələrində pul çatışmazlığı olmamışdır. Azərbaycanda bu zaman yerli «kredit» mis pullarla yanaşı [3, 78], Bizansın, Səlcuqların [11, 189, 191] qızıl sikkələri əmtəə-pul münasibətlərində istifadə olunmuşdur. Bu mülahizəni Azərbaycan Respublikasının Cənub-şərq bölgəsində müvafiq dövrə aid aşkarlanmış tapıntılar bir daha sübut edir.

Cənub-şərq bölgəsində XII əsr və XIII əsrin əvvəllərinə aid aşkarlanan təsadüfü tapıntılar və sikkə dəfinələrinin topoqrafik məlumatlarının öyrənilməsi Azərbaycanda gümüş böhranı dövründə pulkəsmənin və mis sikkələrin dövriyyəsinin bəzi mühüm xüsusiyyətlərini aydınlaşdırmağa imkan verir.

Hər iki növ mis sikkənin dövriyyədə praktik icrasının müxtəlif üsullarını nümayiş etdirən Azərbaycanın Cənub-şərq bölgəsində aşkarlanan və ilk dəfə elmi dövriyyəyə cəlb olunan aşağıdakı 4 sikkə dəfinəsi və 3 təsadüfi tapıntı diqqətəlayiqdir.

**I**. 2006-cı ilin 23 avqustunda Lənkəran rayonunun Kərgəlan (Kaqəlonə) kəndində Həsənov Şəfahət Səyyad oğlu pay torpağında qazıntı işi apararkən, 70-80 sm dərinlikdə saxsı qabda İraq Səlcuqlarına aid 68 ədəd "düzgün" formalı mis sikkələrdən ibarət dəfinə aşkar etmişdir. Sikkələrin təsviri aşağıda verilmişdir.

1-4. Iraq Səlcuqları, Sultan Müəzz əd-din Arslan 556-571=1161-1176 [4, 162], zərb ili və yeri pozulub, mis dirhəm. (Tablo № I, şəkil 1). Üz tərəfdə: ..... ikili halqanın içərisində yazılar pozulub. Əks tərəfdə: السلطان / المعظم / آرسلان [əs-Soltane/ əl-Müəzzəm/Arslan].

5. İraq Səlcuqları, Müəzz əd-din Arslan 556-571=1161-1176, zərb ili və yeri pozulub, mis dirhəm. Üz tərəfdə: سبحان الله / ikili halqanın içərisində 1-si sətirdə [ Sübhan/ Allah/.../.../.]. Əks tərəfdə: السلطان / المعظم / آرسلان / آتابک ikili halqanın içərisində 4 sətirdə [əs-Soltane əl-Müəzzəm Arslan atabək].

6. İraq Səlcuqları, Müəzz əd-din Arslan 556-571=1161-1177, zərb ili və yeri pozulub, mis dirhəm. Üz tərəfdə: خليفه/ المستنجد ikili halqanın içərisində 2-

3-cü sətirdə [Xəlifə əl-Müstəncid... ]. Əks tərəfdə: السلطان/ المعظم/ آرسلان/ شاه ikili halqanın içərisində 3 sətirdə [əs-Soltane/ əl-müəzzəm /Arslan şah].

7-68. İraq Səlcuqları, adı, zərb ili və yeri pozulub, mis dirhəm. (Tablo № I, şəkil 2). Üz tərəfdə: سبحان/ الله ikili halqanın içərisində 2-3-cü sətirdə [Sübhan Allah]. Əks tərəfdə:..... ikili halqanın içərisində 3 sətirdə yazılar pozulub.

13-68. İraq Səlcuqları, Sultan Rukn əd-din III Toğrul 571-590=1176-1194, zərb ili və yeri pozulub, mis dirhəm. Üz tərəfdə: بالله yarımçıq ikili halqanın içərisində 3-cü sətirdə [..../.../Billahi/]. Əks tərəfdə: ......... / السلطان /المعظم ikili halqanın içərisində 3 sətirdə [əs-Soltane/ əl-müəzzəm /...........].

Kərgəlan dəfinəsinin tərkibində olan sikkələrin üzərində zərb tarixləri qeyd olunmasa da, tapıntının xronoloji sərhədlərini təqribən müəyyən etmək olar. Belə ki, sikkənin üzərindəki əl-Müstəncidin xəlifəliyi hicri tarixi ilə 555-566-cı illəri [ 4, 32] əhatə etdiyindən, hicri tarixi ilə 555-ci (1160) il dəfinənin uzaq sərhədini, Sultan III Toğrulun hakimiyyəti hicri tarixi ilə 571-590-cı illəri əhatə etdiyindən, hicri tarixi ilə 590-ci il (1194) dəfinənin yaxın sərhədini təyin edir.

**II.** Lənkəran rayonunun Mamusta kəndinin şimalında 2008-ci ilin yayında ”Əsədi kulət” adlanan yerdə paxır bağlamış Atabəy Şəms əd-Din Eldəgəzə aid edilən 8 ədəd “düzgün” formalı mis dirhəm tapmişdır. Sikkələrin təsviri aşağıda verilmişdir.

1-6. Eldəgəzlər, Şəms əd-Din Eldəgəz 531-571=1137-1176 [ 4.s.171], zərb ili və yeri pozulub, mis dirhəm. (Tablo № I, şəkil 6). Üz tərəfdə: السلطان halqasız 1-ci sətirdə [ əs-Soltane]. Əks tərəfdə: /...آتابک/ الد ...ز/ halqasız 4 sətirdə [..../Atabək/ Eldəgəz.../......], zərb ili və yeri pozulub.

7-8. Eldəgəzlər, Şəms əd-Din Eldəgəz 531-571=1137-1176, zərb ili və yeri pozulub, mis dirhəm. (Tablo № I, şəkil 7). Üz tərəfdə: لا اله/ الاالله/ محمد/ رسول الله halqasız pozulmuş 4 sətirdə [La ilahə/ iləllah Muhəmmədun/ Rəsulullah]. Əks tərəfdə: /.../ آتابک/ الدکز/ ikili halqanın içərisində 3 sətirdə [Atabək/ Eldəgəz/...] Zərb ili və yeri pozulub.

Yuxarıda təyinatı verilən 8 ədəd “düzgün” formalı mis dirhəmlərin zərb yerləri və illəri pozulduğundan oxumaq mümkün olmasa da, yazılar tarixi mənbə kimi böyük əhəmiyyət kəsb edir. Belə ki, tədqiqatlar zamanı elmi ədəbiyyatda sülalənin əsasını qoyan Atabəyin adının Eldoğuz [11, 75, 77], Eldəgiz [13, 61], Eldəniz [1, 203-206] kimi yazılmasına baxmayaraq 8 sikkə üzərində emitetin adı Eldəgəz / الدکز / kimi zərb olunmuşdur.

**III.** 2003-cü ilin iyulun 14-də Lənkəran şəhərində həyatyanı sahədə təsərrüfat işləri zaman 1-1,5 m dərinlikdən saxsı qabın içərisində 52 ədəd Atabəy Nüsrət əd-Din Muhəmməd Cahan Pəhləvana mənsub mis sikkə tapmışdır. Sikkələrin təsviri aşağıda verilmişdir.

1. Eldəgəzlər, Şəms əd-Din Eldəgəz 531-571=1137-1176, zərb ili və yeri pozulub, mis dirhəm. Üz tərəfdə: لا اله/ الاالله/ محمد/ رسول الله halqasız pozulmuş 4 sətirdə [La ilahə/ iləllah Muhəmmədun/ Rəsulullah]. Əks tərəfdə: / آتابک/ الدکز

/.../ ikili halqanın içərisində 3 sətirdə [Atabək/ Eldəgəz/...], zərb ili və yeri pozulub.

2-20. Eldəgəzlər, Nüsrət əd-Din Muhəmməd Cahan Pəhləvan 571-582=1176-1187 [ 4.s.171], zərb ili və yeri pozulub, mis dirhəm. (Tablo № I, şəkil 8). Üz tərəfdə: محمد /اتابک /المعظم /الملک ikili halqanın içərisində 4 sətirdə [əl-Məlik əl-muəzzəm Atabək Muhəmməd] 1-ci və 2-ci halqaların arasındakı yazılar oxunmur. Əks tərəfdə: طغرل /الاعظم /السلطان / ...../....../halqanın içərisində 5 sətirdə [əs-Soltane əl-əzəm Toğrul] 1-ci və 2-ci sətirlər pozulmuşdur, halqanın ətrafındakı yazılar oxunmur.

Eldəgəzlərin sikkələrinin ilk təyinatı 1854-cü ildə K.Fren tərəfindən verilmişdir. Həmən təyinatda Şəms əd-Din Eldəgəzin və onun oğlu Məhəmməd Cahan Pəhləvanın hakimiyyət illəri düzgün verilməmişdir [16, 295 ].

Yuxarıda qeyd olunan sikkələrdən 1-i Atabəylər dövlətinin hökmdarı Şəms əd-Din Eldəgəzin, 19-u isə Nüsrət əd-Din Məhəmməd Cahan Pəhləvanın adına kəsilmişdir. Dəfinənin tərkibindən göründüyü kimi, onlardan 37-si “düzgün”, 13-ü isə “düzgün olmayan” formalı sikkələrə aid edilir. Bu da iki növ mis sikkələrin tədiyyə vasitəsi funksiyasının Azərbaycan Atəbəylər dövlətində praktiki icrasının müxtəlif üsullarını göstərir. Digər tərəfdən dəfinənin tərkibində olan sikkələrin zərb olunma tarixi pozulsa da, ən erkən sikkənin h.t ilə 531-ci (1130) ildə, ən yaxın sikkənin isə h.t.ilə 582-ci (1187) ildə kəsilməsi ehtimal olunur.

**IV.** 2003-cü ilin yazında Astara rayonunun Maşxan kəndində torpaq işləri zamanı Atabəy Nüsrət əd-Din Məhəmməd Cahan Pəhləvana aid edilən 28 ədəd “düzgün” formalı mis sikkədən ibarət dəfinə tapılmışdır. Tapılan həmin sikkələrin təsviri aşağıda verilmişdir:

1-28. Eldəgəzlər, Nüsrət əd-Din Muhəmməd Cahan Pəhləvan 571-582=1176-1187 [ 4.s.171], zərb ili və yeri pozulub, mis dirhəm. (Tablo № I, şəkil 8). Üz tərəfdə: ikili halqanın içərisində 4 sətirdə طغرل المعظم /السلطان / خليفه بامرالله /المستضى [Xəlifə əl-Müstədi/ bi- əmrillah əs-Soltane müəzzəm Toğrul]. Əks tərəfdə: /...اردبيل /الاعظم محمد /المعظم آتابک/ الملک ikili halqanın içərisində 4 sətirdə [əl-Məlik əl-müəzzəm, atabək əl-əzəm, Muhəmməd Ərdəbil, zərb ili pozulub]. Dəfinənin tərkibində olan sikkələrin zərb olunma tarixi pozulsa da, ən yaşlı sikkənin h.t ilə 571/1176-cı ildə, ən gənc sikkənin isə h.t.ilə 582/1187-cı ildə kəsilməsi ehtimal olunur.

**V.** 2007-cu ilin 19 avqustunda Astara rayonunun Ərçivan kəndində “Qımbəz” adlanan yerdə Atabəy Nüsrət əd-Din Əbu Bəkrə məxsus 144 ədəd mis sikkə tapmışdır. Sikkələrin təsviri bu cürdür. 1. Eldəgəzlər, Nüsrət əd-Din Əbu Bəkr 591-607=1195-1210 [ 4.s.171], zərb ili və yeri pozulub, mis dirhəm. Üz tərəfdə: / امير المؤمنين / الناصر للدين الله /محمد رسول الله / الاالله .../ ikili halqanın içərisində 5 sətirdə [İlləllahu/ Muhəmmədun/Rəsullullahi/ən-Nasir liddinillahu /Əmir əl-möminin]. Əks tərəfdə:ابوبكر/...../شاهنشاه /السلطان الاعظم ikili halqanın içərisində 4 sətirdə [əs-Soltane/əl-əzəm Şahənşah/....../ Əbu Bəkr/].

2-14. Eldəgəzlər, Nüsrət əd-Din Əbu Bəkr 591-607=1195-1210 [

4.s.171], zərb ili və yeri pozulub, mis dirhəm. Üz tərəfdə: الناصر للدين الله / امير / المؤمنين /محمد رسول الله/ ... / ... / bir-birinə birləşmiş nöqtələrdən ibarət halqanın içərisində 4 sətirdə [........./ Muhəmmədun /Rəsullullahi /ən-Nasir liddinillahu /Əmir əl-möminin]. Əks tərəfdə: شاهنشاه/...../ابوبکر محمد / bir-birinə birləşmiş nöqtələrdən ibarət halqanın içərisində 4 sətirdə [/...Şahənşah.../Əbu Bəkr/Məhəmməd/ ..].

**VI.** 2007-ci ilin 30 sentyabrında Astara rayonunun Kijəbə qəsəbəsi Lovayn kəndində şum zamanı 1 ədəd Atabəylər dövlətinə aid edilən mis sikkə tapmışdır. Sikkələrin təsviri aşağıda verilmişdir.

1. Eldəgəzlər, Nüsrət əd-Din Əbu Bəkr 591-607=1195-1210 [ 4.s.171], zərb ili və yeri pozulub, mis dirhəm. Üz tərəfdə: ..............[ Yazılar pozulmuşdur]. Əks tərəfdə: ابو بکر [Əbu Bəkr].

**VII.** 2007-ci ilin 30 sentyabrında Astara rayonunun Ərçivan kəndində Rzayev Əfqan həyətyanı sahəsində qazıntı işi apararkən Bişkinlərə aid edilən 26 ədəd mis sikkə tapmışdır. Burada tapılmış sikkələr bunlardır. 1-4. Bişkinilər. Bişkin bin Məhəmməd 570-607=1175-1210, Əhər 61X=120X, mis dirhəm. Üz tərəfində:

لا اله الاالله/ محمد رسول الله/ صل الله عليه و اله و سلم/ خليفه الناصر للدين الله /امير المؤمنين/

[La ilahə iləllah Muhəmmədun Rəsul Allah, sələllahu əleyhi və səlləm, Xəlifə ən-Nasir-liddinillahu / Əmir əl-möminin]. Əks tərəfdə: آتابی الاعظم ابوبکر محمد [atabək əl-əzəm Əbu Bəkr bin Muhəmməd]. ملک الامراء /نصرت الدين محمود بن/ بشکن بن محمد ... ١٠٦

[Məlik əl-Üməra Bişkin bin Muhəmməd, Əhər 61x=120x]

5. Bişkinilər. Bişkin bin Məhəmməd 570-607=1175-1210, Əhər 61X=120X, mis dirhəm. Üz tərəfdə: خليفه الناصر للدين الله امير المؤمنين آتابک الاعظم ابوبکر [Xəlifə ən-Nasir lid-din Allah, Əmir əl-möminin, Atabək əl-əzəm Əbu Bəkr]. Əks tərəfdə: بشکين بن محمد [Bişkin bin Muhəmməd ], zərb ili və yeri pozulub. Tayfa damğası.

6. Bişkinilər. Bişkin bin Muhəmməd 570-607=1175-1210, zərb ili və yeri pozulub, formasız mis sikkə. Üz tərəfdə: ابو بکر [Əbu Bəkr]. Əks tərəfdə: بشکين [Bişkin].

7. Bişkinilər, Bişkin bin Məhəmməd 570-607=1175-1210, Əhər 61X =120X, düzgün olmayan mis sikkə. (Tablo № I, şəkil 10). Üz tərəfində: / .....صر للدين الله /امير المؤمنين/...... الاعظم/ halqasız 4 sətirdə [........sir liddinillahu /Atabək Əbu Bəkr/ Əmir əl-möminin/əl-əzəm]. Əks tərəfdə: / بشکن بن محمد/ İkili halqanın içərisində 2 sətirdə [Bişkin bin Muhəmməd].

8. Bişkinilər, Mahmud bin Bişkin 607-622=1210-1225, zərb ili və yeri pozulub, mis dirhəm. (Tablo № I, şəkil 11). Üz tərəfdə: لا اله الاالله محمدٌ رسول الله الناصر للدين الله/ امير المؤمنين [La ilahə iləllah Muhəmmədun Rəsulullah Xəlifə ən-Nasir liddinillhu Əmir əl-möminin]. Əks tərəfdə: آتابک المعظم/ ازبک بن محمد/ ملک الامراء / نصرت الدين محمود/ بن بشکن بن محمد

[Atabəy əl-müəzzəm/ Özbək bin Məhəmməd/ Məlik əl-üməra Nüsrət əd-

Din Mahmud bin Bişkin bin Məhəmməd,... zərb ili və yeri pozulub]

9-12. Bişkinilər, Mahmud bin Bişkin 607-622=1210-1225, Əhər zərb ili pozulub, mis dirhəm. Üz tərəfdə: لا اله الاالله/ محمدٌ رسول الله/ خليفه الناصر/ للدين الله [la ilahə illəllah Muhəmmədun rəsulullah, Xəlifə ən-Nasir liddinillahu]. Əks tərəfdə: آتابک الاعظم ابوبکر [Atabək əl-Əzəm Əbu Bəkr].

13-26. Bişkinilər, Mahmud bin Bişkin 607-622=1210-1225, zərb ili və yeri pozulub, mis dirhəm. Üz tərəfdə: /........ /لا اله الاالله/ محمدٌ رسول الله / ikili halqalı 5 sətirdə [La ilahə iləllah/ Muhəmmədun Rəsulullah/ ........../ ............./]. Əks tərəfdə: /......./ ملک /....../ ازبک بن /آتابک المعظم halqasız 5 sətirdə [Atabək əl-müəzzəm/ Uzbək bin ........./ Məlik....../ ........ /].

**VIII.** 2007-ci ilin 30 sentyabrında Astara rayonunun Kijəbə qəsəbəsi Tüləgüvan kəndində Babayev Alışın həyətyanı sahəsində qazıntı işi zamanı 1 ədəd Dərbənd məliyi Bekbarsa aid edilən mis sikkə tapılmışdır. Sikkənin təsviri aşağıda verilmişdir.

10. Dərbənd məlikləri, Bekbars 1170-1180, zərb ili və yeri pozulub, düzgün olmayan formalı mis sikkə. (Tablo № I, şəkil 12). Üz tərəfdə: لا اله الاالله/ وحده لا شريک له/ محمدٌ رسول الله [La ilahə iləllah/ vəhdəhu-lə şərikələh/ Muhəmmədun rəsulullah]. Əks tərəfdə: ملک العادل بکبارس بن مظفر [Məlik əl-Adil Bekbars bin Muzəffər].

Araşdırmalardan göründüyü kimi [11, 189, 191], Atabəylər dövlətinə və onun vassallarına aid tapıntıların əksəriyyətinə Azərbaycanda Kürlə-Araz arasında Naxçıvan, Aran, Muğan, Talış nahiyyələrində rast gəlinir. Bu da onunla izah olunur ki, qeyd olunan dövrdə Avropa ilə Asiya arasındakı qarşılıqlı əlaqələrdə böyük rol oynayan "İpək yolu"nun şaxələrindən biri Trapezund (Trabzon) şəhərindən başlayaraq, Ərzincan, Ərzurum, Qars, şəhərlərindən keçərək, bir qolu Araz boyu Çuxursəd (Naxçıvan), Ani, Dəbili arxada qoyaraq, Kür boyu Şəmkir, Gəncə, Bərdə, Beyləqana tərəf uzanmaqla, hər iki yol sonda Muğan və Talış bölgələrinə gedib çıxırdı. Burada isə Şimali və Cənubi Azərbaycan arasında "quru körpü" [2, 7-9] rolunu oynayan Talış dağları və Xəzərin cənub sahili ilə Şimali Azərbaycandan gələn çox qədim ticarət yolları ilə qovuşurdu. Azərbaycan Respublikasının Cənub-şərq bölgəsində tapılmış və Atabəylər dövlətinə aid edilən təsadüfi tapıntılar və dəfinələr bu iri ticarət arteriyasının üstündə aşkar edilmişdir.

Bununla belə, tapılmış dəfinələr Azərbaycan Respublikasının Cənub-şərq bölgəsinin tarixi-iqtisadi baxımından öyrənilməsində uyğun dövrdə Atabəylər dövlətinin pul təsərrüfatı və əmtəə-pul münasibətlərinin araşdırılmasında, dövlətin siyasi durumunun öyrənilməsində xüsusi əhəmiyyət kəsb edən bir qaynaq rolunu oynayır.

Tablo № 1



Şəkil 1.



Şəkil 2



Şəkil 3.



Şəkil 4.



Şəkil 5.



Şəkil 6.



Şəkil 7.



Şəkil 8. Av. Rev.



Şəkil 9.



Şəkil 10.



Şəkil 11.



Şəkil 12.

1. Lənkəran rayonunun Kərgəlan kəndi, İraq Səlcuqları, Sultan Müəzz əd-din Arslan, 1-3; Sultan Rukn əd-din III Toğrul, şəkil 4-5; 2. Lənkəran rayonunun Mamusta kəndi, Azərbaycan Atabəyləri, Şəms əd-Din Eldəgəz, şəkil 6-7; Lənkəran şəhəri, Nüsrət əd-Din Muhəmməd Cahan Pəhləvan, şəkil 8; Nüsrət əd-Din Muhəmməd Cahan Pəhləvan, şəkil 9; 2. Astara rayonunun Ərçivan kəndi, Azərbaycan Atabəylərinin məlikləri, Bişkin bin Məhəmməd, şəkil 10; Maşxan kəndi, Mahmud bin Bişkin, şəkil 11; Kijəbə qəsəbəsi Tüləgüvan kəndi, Bekbars, şəkil 12.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi, 7 cilddə, II c. (III-XIII əsrin I rübü). Bakı: Elm, 2007. 608 s.
2. Bünyadov Z.M. Azərbaycan Atabəylər Dövləti. (1136-1225-ci illər). Bakı: Şərq-Qərb, 2007, 424 s.
3. Rəcəbli Ə.M.Talış-Muğan zonasında aşkara çıxarılmış sikkə dəfinələrinin topoqrafik xüsusiyyətləri / Lənkəran-Astara zonasının arxeoloji problemləri. Lənkəran, 1998, 7-9 s.
4. Rəcəbli Ə.M. X-XIII əsrlərdə Azərbaycanda sikkə reqaliyasının /sikkə zərbi hüququnun/ həyata keçirilməsinin bəzi xüsusiyyətləri haqqında // Görkəmli Azərbaycan arxeoloqu Saleh Mustafa oğlu Qazıyevin anadan olmasının 100 illiyinə həsr edilmiş elmi sessiyanın materialları. Bakı: Elm, 1994, 78-79 s.

**Rus dilində**

5. Босворт К.Э.Мусульманские династии. Справочник по хронологи и генеологии. Москва: Наука, 1971, 324 с.
6. Давидович Е.А. Из области денежного обращения в Средней Азии XI-XIII вв.// сб. «Нумизматика и эпиграфика», В 2-х т. Т. II , Москва:1960, 92-117 с.
7. Литвинский В.А. О некоторых моментах развития средневекового города Средней Азии.// Изв. Отд. Общ. Наук А.Н. Таджикской ССР, вып. Сталинавад: 1953, 62-68 с.
8. Марков А.К. Инвентарный каталог мусульманских монет Императорского Эрмитажа, СПб, 1896, 394-398 с.
9. Мушегян. Х.А. Денежное обращение Двина по нумизматическим данным. Ереван: Изд-во АН Арм. ССР, 1962, 203 с.
10. Пахомов Е.А. Монетное обращение Азербайджана в XII и начале XШ в.// Труды Государственного Исторического музея, вып. XXVI. Нумизмат, сб., ч. 2, М., 1957, 83 с.
11. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик и краев Кавказа. Баку: АН АзССР, 1957. Вып. VII, 124 с.
12. Раджабли А. Нумизматика Азербайджана. Баку: Елм ва хайат, 1997, 232 с.
13. Раджабли А.М. М. Ещё раз о «серебряном кризисе» в денежном обращении Азербайджана и впервые об уникальных монетах феодальных правителей Азербайджана XII – начала XIII вв. / Материалы научной сессии, посвящённой итогам научно-исследовательских работ Музея за 1982 г. Баку: 1983, 41–46 с.
14. Сейфеддини. М.А. Монетное дело и денежное обращение в Азербайджане XII-XV вв. Книга 1. XII - начало XIV в. Баку: Элм,1978, 264 с.

**Xarici ədəbiyyat**

15. Fraehn Ch.M. Recensio numarum Muhammedanorum Akademiae lmp.scient. Petropolitanae. Petropoli, 1826. 544 p.
16. Kouymjian D. A. Three Unique Gold Joins of the Atabeqs of Northwestern Iran / Ajtes Du 8... Jonqress International de Numusmatique. N.Y., Washinqton, 1978, 533-538 p.
17. Lane-Poole St. Cataloque of Oriental Coins in the British Musium. // Vol. III., London, 1878, 240, № 675.


## МОНЕТЫ О ВРЕМЕНИ “СЕРЕБРЯНОГО КРИЗИСА” НАЙДЕННЫЕ В ЮГО-ВОСТОЧНОМ РЕГИОНЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**М.В.ДЖАФАРОВ**

### РЕЗЮМЕ


Исследованные монеты в кладе, которая считается принадлежающий Государству Атабеков чеканились во имя Шамсаддин Ильдегиза и Мухаммед Джахан Пахлавана.

Как видно из состава клада 37 из них монет являются "правильной", а 13 "неправильной" формы чекана. Монеты принадлежающий Государству Атабеков в данный пе-

риод были найдены на одной из ветвей Великого шелкового пути, который играл важную роль в соединении Европы с Азией.

**Ключевые слова:** Селджукиды, Атабеки, мелик, клад, монета, динар, дирхем, серебро

## COINS BELONGING TO “SILVER CRISIS” FOUND IN THE SOUTH-EASTERN TERRITORY OF THE AZERBAIJAN REPUBLIC

**M.V.JAFAROV**

### SUMMARY

The coins in the treasury belonging to the state of Azerbaijan were minted after the name of Shamsaddin Eldagaz and Mahammad Jahan Pahlavan.

As it is seen from the composition of the treasury, 37 of the coins are of “regular’’ and 13 are of “irregular” shape. The treasury belonging to the state of Atabaylar was found on one of the branches of the Silk Road connecting  Europe with Asia.

**Key words:** Seljuks, Atabay, king, treasure, coin, dinar, dirham, silver